# *Azərbaycan Koreya Respublikasında keçirilən "Qyonqcu İpək Yolu Mədəniyyət Festivalı"nda iştirak etmişdir*






Ötən həftə Koreya Respublikasının Qyonqsanbuk əyalətində "Qyonqcu İpək Yolu Mədəniyyət Festivalı" keçirilmişdir. Qədim İpək Yolu üzərindəki ölkələr arasında tarixən mövcud olmuş mədəni əlaqələri günümüzdə yenidən qurmaq, inkişaf etdirmək, habelə mədəniyyət mübadiləsi ilə dünyada sülh prosesinə töhfə vermək məqsədi daşıyan festival rəngarəng proqramı ilə, o cümlədən kompozisiyanın leytmotivini təşkil edən sərgilər, konsertlər, təqdimatlar, tamaşalar böyük maraq doğurmuşdur.

BMT-nin ixtisaslaşmış qurumu olan Dünya Turizm Təşkilatının dəstəyi ilə keçirilən və Koreyanın qədim mədəniyyət mərkəzlərindən olan Qyonqcu şəhərindəki Dünya Mədəniyyət Parkında təşkil olunan festivalda 30-dan çox ölkə, o cümlədən Azərbaycan nümayəndə heyyətinin tərkibində Qəbələ rayonu da təmsil olunmuşdur. Festivalın açılış mərasimində qonaqları salamlayan Koreya Respublikasının Baş naziri Hvanq Kyo-ahn bu cür tədbirlərin xalqları, ölkələri bir-birinə daha da yaxınlaşdırmaq baxımından əhəmiyyətini vurğulamışdır. Baş nazir müxtəlif mədəniyyətləri, adət-ənənələri təmsil edən insanların xalqlar arasında yeni əməkdaşlıq imkanlarını ortaya çıxarmağa kömək edəcəyini bildirmiş, dünyada müharibələrin, zorakılıq hallarının çoxaldığı bir vaxtda bu cür mədəni tədbirlərə daha böyük ehtiyac olduğunu qeytd emiş və ölkəsinin gələcəkdə də belə təşəbbüslərə dəstək verəcəyini söyləmişdir.

Açılış mərasimi maraqlı konsert proqramı ilə davam etmişdir. Azərbaycan bu festivalda Dövlət Rəqs və Qədim Musiqi Alətləri ansamblları üzvlərindən, pianoçu və solistlərdən, saz ifaçılarından ibarət böyük bir heyətlə çıxış edir.

Açılış konsertinin maraqlı məqamlarından biri kombinasiyalı kompozisiyalar olmuşdur. Koreyalı və azərbaycanlı rəqqasların birgə çıxışları mərasimə toplaşanlarda böyük maraq doğurmuşdur. Birgə məşq üçün kifayət qədər vaxtın olmamasına baxmayaraq rəqqaslar Azərbaycan və Koreya rəqslərini yüksək səviyyədə ifa etmişlər.

Qeyd edək ki, incəsənət ustalarımızın festivalda iştirakı Azərbaycan Mədəniyyəti Fondunun və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin, ölkəmizin Seuldakı səfirliyinin dəstəyi ilə baş tutmuşdur.

Festival çərçivəsində təşkil edilən "Böyük bazar" yarmarkasında iştirakçı ölkələr milli pavilyonlarını hazırlamışlar. Azərbaycan pavilyonunda milli suvenirlər, ölkəmizin və onun paytaxtının rəmzləri olan hədiyyələr, milli geyim nümunələri, musiqi alətləri, əl işləri, çay dəstləri, habelə ölkəmizdə istehsal olunan qida məhsulları, o cümlədən meyvə şirələri, müxtəlif içkilər, mürəbbələr, şirniyyatlar nümayiş olunmuşdur. Koreyalılar və festival iştirakçıları milli pavilyonumuza böyük maraq göstərmişlər.

Azərbaycan mədəniyyətinin Koreyada tanıdılması işinə böyük töhfələr verən festivalda Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev iştirak etmişdir.

# Azərbaycanın Qəbələ və Koreyanın Qyonqcu şəhərləri qardaşlaşır

Koreya Respublikasının Qyonqcu və Azərbaycanın Qəbələ şəhərləri arasında "Dostluq münasibətlərinin qurulması haqqında" Saziş imzalanıb.

İmzalanma mərasimindən əvvəl keçirilmiş görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə yüksələn xətlə inkişafından məmnunluq ifadə edilib. Müxtəlif istiqamətlər üzrə ikitərəfli əlaqələrin genişlənməsinin hər iki tərəf üçün faydalı olduğu da vurğulanıb. Eyni zamanda görüşdə qeyd edilib ki, ölkələrimizin ayrı-ayrı bölgələri, şəhərləri arasında birbaşa əməkdaşlığın yaranması və inkişafı bu baxımdan təqdirəlayiqdir.

Tərəflər qədim tarixi olan Qəbələ və Qyonqcu şəhərləri arasında əlaqələrin yaranmasına əsas verəcək sazişin əhəmiyyətindən də danışıblar. Sazişə əsasən, tərəflər mədəniyyət, elm, biznes, idman, gənclər sahələrində nümayəndə heyətlərinin mübadiləsi yolu ilə iki şəhər arasında dostluq münasibətlərinin qurulmasına razılaşıblar. Bu istiqamətdə qədim İpək Yolu üzərində yerləşən hər iki şəhər iqtisadiyyat, biznes və turizm imkanlarından istifadə etməklə əlaqələrin genişlənməsinə töhfə verəcək, tarix, mədəniyyət və arxeologiya sahələri də daxil olmaqla elmi əməkdaşlığa başlayacaq, idman və gənclər istiqamətində birgə tədbirlər təşkil edəcəklər.

## *Tariximizin maraqlı yadigarları*

Qəbələ Rayon-Tarix-Diyarşünaslıq muzeyində xalqımızın bütün sərvətləri gələçək nəsillər üçün qorunub saxlanılır. Tariximizin canlı şahidi olan hər bir eksponata diqqət və maraq gündən-günə artmaqdadır. Muzeyə gələn ziyarətçilər muzeyimizin tarixi baxımdan zənginliyi, qədimliyi və maraqlı ekspozisiyası haqqında gözəl ürək sözlərini xatirə kitabına qeyd edirlər.

Tarixi dövrü ardıcıl şəkildə əks etdirən ekspozisiyada gil qablar xüsusi yer tutur. Antik dövrdən bu günümüzə qədər olan zaman ərzində istifadə olunan hər növdə gil qablar ekspozisiyamızda üstünlük təşkil edir. Gil çıraqlar (müxtəlif formalarda), su qabları, boşqablar, bərnilər, vazalar, qazanlar, bitkilərdən məlhəmlər hazırlamaq üçün xüsusi qablar, küplər və ən nəhayət XIV-XV əsrlərdə soyuduci kimi istifadə olunan böyük küp tariximizin yadigarları kimi ekspozisiyamıza bir gözəllik qatır. Muzeyin direktoru Xalis Məmmədov e.ə II-I əsrlərə və yeni eramıza aid olan hər növdə gil qablardan ibarət "Tariximizin yadigarları" adlı geniş sərgi təşkil etmişdir.

**İlhamə QULİYEVA,**
**muzeyin kiçik elmi işçisi.**

## *Qonaq qarşılamağı da, səyahət etməyi də sevirik*

2015-ci ilin yanvar-iyun aylarında respublikanın sərhəd buraxılış məntəqələrindən 5 milyon 761 min 200 nəfər keçib. Onların 66,3 faizi Azərbaycan, 10,4 faizi Rusiya federasiyası, 10,1 faizi Gürcüstan, 5,2 faizi Türkiyə, 2,5 faizi İran vətəndaşıdır. Ölkəyə gəlib-gedənllər arasında Özbəkistan, ABŞ, İtaliya, Belərus və digər ölkələrin vətəndaşları da çox olub.

Ölkəmizə 6 ay ərzində 973 min 500 nəfər gəlib. Onların yarıdan çoxunu Rusiya, Cürcüstan vətəndaşları təşkil edib. Qonaqlar arasında Türkiyə, İran, Ukrayna, Birləşmiş Ərəb Krallığı, Qazaxıstan, Almaniya, ABŞ-dan gələn vətəndaşlar da digər ölkələrdən gələnlərə nisbətən çoxdur. Keçən ilin eyni dövrü ilə müqayisədə bir sıra ölkələrdən gələn qonaqların sayı artsa da ABŞ, Rusiya, Gürcüstan, Türkiyə, Qazaxıstan və Çin vətəndaşlarının sayında azalma qeydə alınıb.

İlin birinci yarısında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı 1 milyon 919 min 200 nəfər olub.